# AZƏRBAYCAN RESPUBLİKASI
# AUDİTORLAR PALATASI SƏDRİNİN
# Ə M R İ

**Bakı şəhəri** **№10** **11 fevral 2022-ci il**

**2022-ci ildə auditor adı almaq üçün imtahanların keçirilməsi ilə əlaqədar Auditorlar Palatasında İmtahan və Apellyasiya Komissiyalarının yaradılması haqqında**

“Auditor xidməti haqqında” Azərbaycan Respublikasının Qanununu, “Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında” Əsasnaməni rəhbər tutaraq və Auditorlar Palatasının 2022-ci il üzrə iş planının 5.3-cü “Auditor adı almaq üçün imtahanların təşkil edilməsi” bəndinə müvafiq olaraq **əmr edirəm:**

1. 2022-ci ildə auditor adı almaq üçün imtahanların keçirilməsi ilə əlaqədar aşağıdakı tərkibdə Auditorlar Palatasının İmtahan Komissiyası yaradılsın:

**İmtahan Komissiyanın sədri:**

Cəfər Həsənov - Auditorlar Palatasının üzvü.

**İmtahan Komissiyanın üzvləri:**

Səbuhi Gülməmmədov - Məsul katib, Palatanın icraçı direktoru;
Elmira Behbudova - Palatanın Kadr hazırlığı idarəsinin rəisi;
Aqşin Vəliyev - Mərkəzi Bankın baş direktoru;
İlham Süleyman - «İmdad-audit» MMC-nin direktor-auditoru;
Şamil Ərəbov - İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Aparatının Vergi Siyasəti Baş İdarəsinin rəis müavini;
Nazim Axundov - Auditorlar Palatasının üzvü, sərbəst auditor;
Sifariz Səbzəliyev - Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) «Mühasibat uçotu və audit» kafedrasının müdiri.

2. İmtahan Komissiyasına tapşırılsın ki, Auditorlar Palatasının 2022-ci il üzrə iş planının 5.3-cü “Auditor adı almaq üçün imtahanların təşkil edilməsi” bəndinə uyğun olaraq müvafiq tədbirlərin yerinə yetirilməsini, auditor adı almaq üçün imtahanların yüksək səviyyədə və tam şəffaflıq şəraitində keçirilməsini, imtahanlarda iştirak edən şəxslərin biliklərinin obyektiv qiymətləndirilməsini təmin etsin.

3. İmtahan Komissiyası tərəfindən haqqında mənfi qərar çıxarılmış şəxslərin müraciətlərinə baxılmasını və şikayətlərin obyektiv araşdırılmasını təmin etmək məqsədi ilə aşağıdakı tərkibdə Apellyasiya Komissiyası yaradılsın:

**Apellyasiya Komissiyanın sədri:**

Fuad Əliyev - «F.N. Audit Servis» MMC-nin direktor-auditoru.

**Apellyasiya Komissiyanın üzvləri:**

Xaləddin Əliyev - "S.L.S Audit-Consulting xidməti" MMC-nin direktor-auditoru.

Vaqif Axundov - Auditorlar Palatasının üzvü, sərbəst auditor;

Vəli Rəhimov - Palatanın Maliyyə və texniki təminat idarəsinin rəisi.

4. Apellyasiya Komissiyasına tapşırılsın ki, auditor adı almaq üçün keçirilən imtahanlarda müvəffəq bal toplamamış hər bir iddiaçının müraciətinə təxirə salınmadan müvafiq qaydada baxılması təmin edilsin.

5. Auditorlar Palatası sədrinin "2021-ci ildə auditor adı almaq üçün imtahanların keçirilməsi ilə əlaqədar Auditorlar Palatasında İmtahan və Apellyasiya Komissiyalarının yaradılması haqqında" 2021-ci il 29 yanvar tarixli 05 nömrəli əmri qüvvədən düşmüş hesab edilsin.

**Palatanın sədri** **Vahid Novruzov**